# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ORQANİK ARIÇILIĞIN İNKİŞAF PERSPEKİVLƏRİ

**Mahmud Qurbanov**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi, mqurbanov@gmail.com*

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində təbii iqlim şəraiti aqrar istehsalın digər sahələri ilə yanaşı, arıçılığın inkişafı üçün də əlverişli imkanlar açır. Müasir şəraitdə həmin imkanlardan istifadə edilməsi əsasında arı ailələrinin sayının çoxaltmaq, bu sahədə məhsuldarlığın artırılması ilə bal istehsalını yüksəltmək olar.

İşğaldan azad edilmiş rayonlar arıçılığın inkişafı üçün böyük potensiala malikdir. Xüsusilə Kəlbəcər rayonu həm təbii iqlim şəraitinə, həm də bitki örtüyünün zənginliyinə görə daha əlverişlidir. Statistik məlumatlara görə, 1991-ci ildə Kəlbəcər rayonunda 3898, 1992-ci ildə isə 3438 arı ailəsi olmuşdur.

Kəlbəcər və Laçın yaylaqlarına 2021-ci ildə ümumilikdə 4068 arı ailəsinin köçürülməsi təmin edilib. 2022-ci ildə isə 20000-dən ardıq arı ailəsinin yerləşdirilməsi nəzərdə tutulmuşdur. Alınan məlumatlara görə, hər arı ailəsindən ortalama 30 kq bal əldə olunmuşdur. Bu isə həm yüksək məhsuldarlıq, həm də ölkədə məhsul bolluğu deməkdir. Kəlbəcərin relyefi və iqlimi imkan verir ki, gələcəkdə burada orqanik arıçılıq təsərrüfatları yaradılsın. Bu da öz növbəsində insanların bu bölgələrdə məskunlaşmasına imkan yaradacaq, Kəlbəcər balının xarici bazarlara çıxışına yol açacaq, ölkəyə valyuta gətirəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının digər sahələri ilə yanaşı, orqanik arıçılıq təsərrüfatlarının yaradılması aqrar sahənin inkişafı baxımından atılacaq bir addım olacaq. Həmin ərazilərdə kənd təsərrüfatının inkişafı, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin, ora köçürüləcək insanların məşğulluğunun artmasına töhfə verəcək, yeni investisiyaların cəlb edilməsinə və turizmin (orqanik arıçılıq turizminin) inkişafına imkan yaradacaqdır.